# Ali Rəhbər Həzrət Zəhranın (s.ə) şəhadətinə həsr olunmuş matəm mərasimində iştirak etdi - 17 /Feb/ 2018

İslam İnqilabının Ali Rəhbəri, habelə dövlət işçilərindən bir qrupu və xalqın müxtəlif təbəqələrindən olan minlərlə insanın iştirakı ilə İmam Xomeyni (r.ə) adına hüseyniyədə atasının anası Həzrət Fatimeyi-Zəhranın (s.ə) şəhadət günlərinə həsr edilmiş matəm mərasimi keçirildi.

Mərasimdə İmamlar anasının (s.ə) üstün xüsusiyyətlərindən danışan Höccətül-İslam vəl-müslimin Siddiqi ən üstün imtahanın "vilayətçi"lik imtahanı olduğunu dedi: "Allahın kamil bəndəsi olan Həzrət Zəhra (s.ə) vilayətçilik xəttinin zirvəsində dayanmışdır. Xütbələri və doğru yolu göstərən ağlayışları ilə nifaqın çirkin simasını rüsvay etmişdir".

Mərasimdə cənab Ərzi Həzrət Siddiqeyi-Kubraya (s.ə) həsr edilmiş növhə və mərsiyələr oxudu.

**Materialdan istifadə edərkən WWW.LEADER.İRsaytına istinad zəruridir**